# MÜBARİZ KEŞİKDƏ

11 yanvar 2018-ci il

Cümə axşamı

№ 1(3366)

1933-cü ildən çıxır

Qiyməti 30 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNDƏ TERMİNALIN AÇILIŞINDA İŞTİRAK EDİB





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, "Baş Plan"a əsasən, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Həmçinin xidməti donanma gəmiləri üçün təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, ümumilikdə, 72 müxtəlif təyinatlı bina və qurğuların tikintisi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması aparılacaq. Kompleksdə xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni zamanda 11 kiçik gəminin yan alması mümkündür.

Dövlətimizin başçısının müvafiq sərəncamının icrası ilə bağlı verilmiş tapşırığa əsasən, bu kompleksin inşası üçün 400 hektar torpaq sahəsi ayrılıb. Yeni limanın hazırda inşası aparılan birinci fazası ümumi ərazinin 117 hektarını əhatə edir. 2010-cu ildə Prezident İlham Əliyevin iştirakı ilə kompleksin təməli qoyulub, 2014-cü ildə isə birinci mərhələyə daxil olan liman qurğularından biri - iki körpüdən ibarət bərə terminalı istifadəyə verilib.

Prezident İlham Əliyevə yeni Ro-Ro terminalı barədə məlumat verildi. İldə 60 minə yaxın TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanında olan terminal ən müasir texniki tələblərə uyğun tikilib. Terminaldakı birinci körpünün illik yükaşırma qabiliyyəti 800 min ton, ikinci körpününkü isə 1 milyon tondur. Ro-Ro terminalı iki yanalma körpüsündən ibarətdir. Birinci körpünün uzunluğu 222 metr, ikinci körpünün uzunluğu isə 190 metrə yaxındır. Terminal daşımaların avtomobil-su və su-avtomobil seqmentlərində təkərli texnikanın daşınması üçün nəzərdə tutulur.

Dövlətimizin başçısı terminalın açılışını edib.

Buradakı sistem suyun səviyyəsinin enib-qalxmasından asılı olmayaraq gəmilərin təhlükəsiz şəkildə körpüyə yanalmasını təmin edir. Layihə qrafikinə əsasən, bu il yanvarın sonunadək digər yeddi ümumi yük körpüsünün tikintisi tamamlanacaq. 2018-ci ilin birinci rübünün sonunadək isə anbarların, yardımçı binaların, digər əlaqəli infrastruktur obyektlərinin inşasının, onların mühəndis-kommunikasiya xətlərinin çəkilməsinin, həmçinin yardımçı sistemlərin quraşdırılmasının yekunlaşdırılması nəzərdə tutulur. Limanın əməliyyat binasının inşası isə bu ilin mayında bitəcək.

Dövlətimizin başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verilib.

Prezident İlham Əliyev inşaat ərazisini gəzib, işlərin gedişi ilə yaxından tanış olub.

# PREZİDENT İLHAM ƏLİYEV MEHDİABAD-DİGAH-MƏMMƏDLİ AVTOMOBİL YOLUNUN AÇILIŞINDA İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Abşeron rayonunda yenidən qurulan Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, 16 min nəfər əhalinin yaşadığı Mehdiabad, Fatmayı, Görədil yaşayış məntəqələrini birləşdirən avtomobil yolunun uzunluğu 6,5 kilometrdir. Yolun tikintisinə 1,8 milyon manat vəsait ayrılıb.

Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək üçün Bakıda aparılan kompleks tədbirlər çərçivəsində Azadlıq prospektinin Binəqədi rayonundan keçən hissəsi və Binəqədi şosesi yenidən qurularaq bu ərazidə müasir yol infrastrukturu yaradılıb.

Binəqədi şosesinin yenidən qurulması rayonun Rəsulzadə, Binəqədi, Biləcəri, Baksol qəsəbələrində yaşayan əhaliyə, həmçinin şəhərin mərkəzindən Mehdiabad, Fatmayı, Pirşağı, Digah və digər qəsəbələrə getmək istəyən nəqliyyat vasitələri sahiblərinə rahat yol infrastrukturundan istifadə etməyə imkan verəcək.

Dövlətimizin başçısı Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Sonra xatirə şəkli çəkdirilib.

*****

**Daha sonra Prezident İlham Əliyev "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna baxıb.**

**Qoruqdakı vəziyyətlə tanış olan dövlətimizin başçısı burada şəraitin dözülməz olduğunu bildirib. Qeyd edilib ki, bu qoruğa həm Azərbaycan vətəndaşları, həm də çoxsaylı turistlər gəlir və buradakı şərait ölkəmizin bugünkü inkişaf səviyyəsinə uyğun deyil.**

**Prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq verib ki, dözülməz vəziyyət qısa müddət ərzində aradan qaldırılsın, Azərbaycan vətəndaşları və turistlər üçün yüksək standartlara cavab verən şərait yaradılsın.**

**Yanvarın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

*Ətraflı gələn sayımızda.*

**Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 28-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri dekabrın 28-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə bir qrup şəxsə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı dekabrın 28-də Kuba milli bayramı – Azadlıq Günü münasibətilə Dövlət Şurasının və Nazirlər Şurasının Sədri zati-aliləri cənab Raul Kastro Rusa təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı dekabrın 28-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Flora Qasım qızı Qasımovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri dekabrın 28-də Azərbaycanda rəssamlıq sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Salxab İsa oğlu Məmmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dekabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev "ASAN xidmət" işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Yanvarın 4-də ölkəmizin rəhbəri İsa Peyğəmbərin mübarək mövludu - Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 6-da Xaçmaz rayonunun Çarxı - Qalağan - Hacılar - Xanlıqoba - Sayad - Məmmədxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 8-də Ekvatorial Qvineyanın, Monqolustanın, Nigeriyanın, Bosniya və Hersoqovinanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Xose Esono Miça Akenqin, Bold Ravdanın, Hamzat İbrahimin və Bakir Sadoviçin etimadnamələrini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı yanvarın 9-da Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Arif Möhübəli oğlu Əzizovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri yanvarın 9-da Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə Fərhad Ağa Səlim oğlu Babayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

**Bolqarıstan Prezidenti Rumen Radev yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

**Rumen Radev dövlətimizin başçısını Yeni il münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Bolqarıstan Prezidenti, eyni zamanda, bu yaxınlarda Bakıdan Sofiyaya birbaşa hava xəttinin açılması ilə bağlı Prezident İlham Əliyevə minnətdarlığını bildirərək, bunun iki ölkə arasında əlaqələrin möhkəmlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.**

**Göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev, öz növbəsində, Bolqarıstan Prezidenti Rumen Radevə Yeni il münasibətilə təbriklərini çatdırıb. Dövlətimizin başçısı yeni açılmış Bakı-Sofiya hava xəttinin Azərbaycan-Bolqarıstan əməkdaşlığının daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.**

# İDMANIMIZIN BAYRAQDARLARI

Onlar hər zaman səfərbərdirlər. Bayrağımızı ucaltmaq, ölkəmizin idman şərəfinin qorunması naminə parlaq qələbələr qazanmaq əzmindədirlər. Nə çətin sınaqlar, nə də gərgin yarışlar onları yorub, usandırmır. Gərgin işləyib, əzmlə çalışırlar, asudə vaxtlarını təlim-məşqlərinə həsr edir, ustalıqlarını, hazırlıqlarını daim artırırlar. Zəhmətləri də hədər getmir.

Cinayətkarlıqla mübarizədə fədakarlıq göstərən, asayişi, sabitliyi qorumaq üçün gecəli-gündüzlü sayıq xidmət aparan, yeri gələndə silahlı şəxsləri tərksilah edən, yanğının, odun-alovun içindən insanları xilas edən təmsilçilərimiz bizə idman zəfərləri də bəxş edirlər...

*Bax səh.3.*

**Respublikanın daxili işlər orqanları ümumən cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini də yeni ilin ilk günlərindən uğurla davam etdirir...**

*Bax səh.2.*

# VƏTƏNƏ, DÖVLƏTƏ XİDMƏTİN NÜMUNƏSİ

**Ötən ilin sonlarında hərb tariximizin mühüm səhifələrinə ayna tutan daha bir kitab işıq üzü gördü. Kitabda DİN-in ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şərəfli döyüş yolundan, qəhrəmanlıq ənənələrinin formalaşmasından, dövlətimizin və dövlətçiliyimizin qorunmasındakı fədakar xidmətdən ətraflı söhbət açılır.**

Yarandığı gündən ön cəbhədə Silahlı Qüvvələrimizlə, asayişin, sabitliyin təmin olunmasında, cinayətkarlıqla mübarizə cəbhəsində DİN-in digər xidmətləri ilə çiyin-çiyinə döyüşən bu qurumun yaranıb formalaşmasına, müasir, mobil, qarşıya qoyulan bütün vəzifələri yerinə yetirməyə qadir hərbi birləşməyə çevrilməsi üçün ulu öndərimizin və möhtərəm Prezidentimizin göstərdiyi ali diqqət və qayğıdan geniş bəhs olunur. Bu mübarizələr yolunda itirdiklərimiz də, qazandıqlarımız da topluda öz əksini tapıb.

İllüstrativ, nəfis tərtibatla çap olunmuş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları-25" kitabında həmçinin DQBİ-nin beynəlxalq əlaqələri, ictimaiyyətlə təmasları, hərbi qulluqçuların döyüş təlimlərində, idman yarışlarında əldə etdikləri uğurlardan da bəhs olunur.

Çoxsaylı fotolar, zəngin arxiv materialları bu qurumun 25 ildən artıq tarixinə, qazandığı uğurlara bələdçilik edir.

*Xəyalə Məmmədova,*
*polis leytenantı*

# MEMORANDUM İMZALANIB

**Baş Narkotiklərlə Mübarizə İdarəsində Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə ölkə ərazisində dopinq vasitələrinin qanunsuz dövriyyəsinin qarşısının alınması məsələləri müzakirə olunub.**

Qeyd edilib ki, güclü təsir edən maddələrin idmançılar arasında istifadəsinin qarşısını almaq məqsədilə iki qurum arasında sıx əməkdaşlıq həyata keçiriləcək. Bu əməkdaşlığın antidopinq siyasətinin gücləndirilməsi üçün mühüm rol oynadığı bildirilib.

Dopinqlə mübarizə çərçivəsində antidopinq qaydalarına əsasən, araşdırmalar üzrə idmançılar və onlara dəstək heyəti barədə idmançıların ölkəyə giriş-çıxışı və digər məlumatların, həmçinin güclü təsir edən maddələrin qanunsuz dövriyyəsi ilə əlaqəli şəxslər barədə məlumat mübadiləsinin aparılması razılaşdırılıb.

Sonra Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov və Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli əməkdaşlıq memorandumunu imzalayıblar.

*Natiq Cavadov,*
*polis baş leytenantı*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Respublikanın daxili işlər orqanları ümumən cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini də yeni ilin ilk günlərindən uğurla davam etdirir.**

Bu istiqamətdə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində yalnız dörd gün ərzində güclü təsiredici xüsusiyyətə malik olan, ümumi çəkisi 31 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə, o cümlədən 7,5 kiloqrama yaxın heroin, 23,5 kiloqramdan çox tiryək aşkarlanaraq dövriyyədən çıxarılıb.

Belə ki, Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları əldə etdikləri əməliyyat məlumatları əsasında Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Aydın İbrahimovdan 4 kiloqram 510 qram heroin və 5 kiloqram 525 qram tiryək götürüblər.

Daxil olan digər məlumat əsasında Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsi əməkdaşlarının Cəlilabad rayonu ərazisində keçirdikləri tədbirlərlə rayon sakini Tural Ataşovdan 18 kiloqrama yaxın tiryək götürülüb.

Növbəti uğurlu əməliyyat tədbiri Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən gerçəkləşdirilib. Əldə edilmiş əməliyyat məlumatı əsasında keçirilən tədbirlər nəticəsində rayonun Pərdi kəndində yaşayan Oqtay Rufullayevin evinə baxış zamanı oradan 3 kiloqram 118 qram heroin aşkar edilib.

Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər.

Qeyd olunan faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***5 yanvar 2018-ci il.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ RESPUBLİKA BAŞ PROKURORLUĞU MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

**Respublikanın daxili işlər və prokurorluq orqanlarının peşəkarlıqla həyata keçirdikləri təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində 20 il əvvəl törədilmiş qətl hadisəsinin üstü açılıb.**

Belə ki, bu il dekabrın 26-da Masallı rayonunun Yeni Zuvand kənd sakini Stəkan Məmmədova 1997-ci ildə Tatyan kənd sakini Vüqar İsayevin onun qızı Bahar Məmmədovanı evlənmək məqsədilə qaçıraraq Rusiya Federasiyasına aparması, lakin sonradan Vüqar kəndə qayıtsa da övladından heç bir xəbər olmaması barədə Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edib.

Məlumatla əlaqədar Rayon Polis Şöbəsinin və Prokurorluğunun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. Təxirəsalınmaz tədbirlərlə Bahar Məmmədovanı qətlə yetirməkdə əsaslı şübhələr yarandığından Vüqar İsayev tutulub.

İlkin araşdırmalar zamanı V.İsayevin 1997-ci ilin oktyabr ayında Bahar Məmmədovanı evlənmək məqsədilə qaçırdıqdan sonra Şıxlar kəndinin ərazisindəki meşə zolağına aparması, aralarında baş verən münaqişə zəminində Baharın boynunu qıraraq onu qəsdən öldürməsi, çuxurda basdıraraq üzərinə daş və qaya parçaları yığması, beş ay müxtəlif ünvanlarda gizləndikdən sonra Rusiya Federasiyasının Arxangelsk şəhərinə getməsi müəyyən edilib.

Araşdırmalar nəticəsində o da məlum olub ki, V.İsayev 2005-ci ildə Rusiya Federasiyasının ərazisində də qətl hadisəsi törədərək uzun müddətə azadlıqdan məhrum edilib, cəzasını çəkdikdən sonra isə cari il dekabrın 25-də Masallı rayonuna qayıdıb.

Polis və prokurorluq orqanları əməkdaşlarının, məhkəmə-tibb ekspertinin iştirakı ilə Şıxlar kəndi ərazisindəki qətlin baş verdiyi ehtimal olunan əraziyə baxış keçirilib və oradan B.Məmmədovanın meyidinin qalıqları aşkar edilib.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb, təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***30 dekabr 2017-ci il.***

# İLLƏR KEÇSƏ DƏ...

***"Ay bala, səsimi neynirsən, mən danışım, sən də yaz. Bir də sonra əziyyət çəkib vərəqə köçürəcəksən".***

***"İşimiz bunu tələb edir. Əslində, diktafon bizim ən yaxın köməkçimizdir. Həmişə dadımıza çatır. Bir də ki, mən qəhrəmanlarımızın səslərini yığıb yadigar saxlayıram. Səs arxivimdə çoxlarının səsi var",*** - deyəndə gülümsədi və ***"Elə et ki, mənim səsim o səslərin içində itməsin",*** - deyib söhbətimizə şirinlik qatdı. Bəlkə də özü belə etdi ki, mən daha ürəkli olum...



1941-45 - illər müharibəsindən iki il sonra Qubadlıda doğulsa da atasının işi ilə bağlı 3-cü sinifdən sonra Qafanda oxuyub. Çoxuşaqlı ailədə böyümək elə kiçik yaşlarından ehtiyacla qol-boyun olmaq demək idi. Evin böyük övladı kimi o sıxıntının, kasıblığın nə olduğunu, yaxşı gün-güzaran üçün valideynlərinin hansı əziyyətlərə qatlaşdığını hamıdan çox hiss eləyirdi. Atasının bəlkə də hər gün: "Oxuyun ki, əziyyət çəkməyin", deməsini indi xatırlayanda, elə bu yaşında da kövrəlir, xəyala dalır...

Orta məktəbi bitirdikdən sonra Bakıda ali məktəbə daxil olanların sırasında o da vardı. Ali məktəb, atasının da dediyi kimi, "Ağ günə çıxmağın" başlanğıcı demək idi...

Azərbaycan Dövlət Universitetinin Riyaziyyat fakultəsində təhsil almaq hər oğulun işi deyildi. İlləri hədər vermədi, bu "kənd uşağı" müəllimlərinin sevimlisinə çevrildi. Universitetdə çalışmaq üçün müraciət edəndə ona "yox" demədilər. Baş laborantın qısa zamanda iki məqaləsi işıq üzü gördü.

Daxili işlər orqanlarına gəlməyi isə bir təsadüflə bağlı idi. O zaman DİN-ə əməkdaşların qəbulu üçün bir çox qurumlara sorğular göndərilirdi. Elə universitet rəhbərliyinin və kollektivin müsbət rəyi ilə də o, DİN-ə göndərildi.

1978-ci ildə daxili işlər naziri Arif Heydərovla qısa bir ünsiyyətdən sonra DİN-də referent kimi xidmətə başladı. Hüquqi biliklərini artırmaq üçün daim öz üzərində işləyirdi. Eyni zamanda SSRİ DİN-in Akademiyasını da bitirib ali təhsilli hüquqşunas diplomu aldı.

Sonra DİN-də vəzifə pillələrində irəli çəkildi. Kadrlar İdarəsinin Komplektləşdirmə şöbəsində inspektor, baş inspektor kimi ümidləri doğrultdu. Peşə hazırlığı şöbəsinin rəisi təyin edildi. 1988-ci ildə artıq Kadrlar İdarəsinin rəis müavini idi. Daha sonra Salyan Rayon Daxili İşlər Şöbəsinə rəis göndərildi.

İstefada olan polis polkovniki Mahir Əbilov Salyanda işlədiyi müddətdə baş verən bir faktı da diqqətimizə çatdırdı: "1988-ci il hadisələrində Qafandan sürülən 40 ailə Salyanda məskunlaşmışdı. SSRİ Daxili İşlər Nazirliyindən dedilər ki, təcili Qafana getməliyik. Hər ailədən bir nəfərlə Qafana getdik. Orda Ermənistan DİN-dən də nümayəndələr gəlmişdi. Bir daha gördüm o dəhşətli mənzərələri..."

1991-ci ilin martında yenidən DİN Kadrlar İdarəsi rəisinin müavini təyin olundu. Abşeronda, Sumqayıtda rəis vəzifələrində işlədi.

Veteranımızın sonuncu xidmət yeri DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis heyəti hazırlayan Məktəb oldu. Elə təqaüdə də oradan çıxdı. Amma bu gün yenə də iş başındadır, əli də, ürəyi də işdən soyumayıb Mahir müəllimin. Özəl mühafizə xidmətinə rəhbərlik edir.

"Kollektivinizin əksəriyyətini gənclər təşkil edir, bu gün onların işindən razısınızmı", sualıma cavabı da özünəməxsus oldu: "Ay bala, bu gün dövlətimiz tərəfindən gənclərin inkişafı, öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün hər cür şərait yaradılıb. Uğurlar da göz önündədir. Ancaq bir şeydən gileyliyəm. Gənclərimiz telefondan və kompyuterdən əl çəkmirlər. Deyəsən, kitabdan üz çeviririk. Dostdan üz çevirərlərmi"...

İllər də dəyişir, nəsillər də. Amma əsl insanlar, onların şəxsiyyəti dəyişmir. Mahir Əbilov kimi...

*Hafiz Təmirov,*
*polis mayoru*

# GÖRÜŞ MARAQLI KEÇDİ



**Ötən ilin sonlarında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının nəzdindəki Elmi-Məşvərət Şurasının növbəti iclası keçirildi. Moskva şəhərində gerçəkləşən tədbirdə mən də iştirak etdim.**

Yeri gəlmişkən, iclasa MDB-nin iştirakçı dövlətlərinin daxili işlər orqanlarının nümayəndələri, "Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə əlaqələndirməsi üzrə Büro"nun, Rusiya Federasiyası DİN-in Ümumrusiya Elmi-Tədqiqat İnstitutunun rəhbər heyəti və aparıcı alimləri də qatılmışdılar.

İclasın gündəliyinə bir sıra məsələlər daxil edilmişdi: Elmi-Məşvərət Şurası sədrinin seçilməsi, Şuranın 2017-ci ilin tədbirlər planının icrası vəziyyəti, "Mütəşəkkil cinayətkarlıq üzrə Büro"nun Elmi-Məşvərət Şurası ilə əməkdaşlığı barəsində və yeni il üçün tədbirlər planının layihəsinin müzakirələri.

İclas müddətində "Şura"nın və RF DİN-in Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən elmi məlumatlar təqdim olundu, dinləmələr keçirildi, fikir mübadiləsi aparıldı.

Sonda iştirakçılara İnstitutun yeni "Elmi portal" jurnalı təqdim olundu və xahiş etdilər ki, dərginin işində biz də fəal iştirak edək.

***Şahin Şükürov,***
***DİN-in Polis Akademiyası***
***"DİO-nun inzibati fəaliyyət kafedrası"nın baş müəllimi,***
***hüquq üzrə fəlsəfə doktoru***

# DİN-in MƏTBUAT XİDMƏTİNDƏN

Daxili işlər orqanları əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində keçirdikləri növbəti uğurlu əməliyyat tədbirləri nəticəsində belə hüquqazidd əməllə məşğul olan şəxslər ifşa edilib, külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Ağcabədi rayonunun Yuxarı Qiyamadınlı kənd sakini Mikayıl Bağırov narkotik vasitə olan marixuananı şərti alıcıya 125 manata satarkən saxlanılıb.

Davam etdirilən əməliyyat tədbirləri ilə onun narkotik vasitəni əldə etdiyi mənbə də müəyyən edilib. Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə keçirilən tədbirlərlə narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Yuxarı Qiyamadınlı kənd sakini Qəzənfər İsmayılov da saxlanılıb. Polis əməkdaşlarının apardıqları profilaktik söhbətlər nəticəsində o, evində gizlətdiyi narkotik vasitəni təhvil verməyə razı olub. Yaşadığı evdə ayrı-ayrı yerlərdə torbalarda, kibrit qutularında və bükülü halda olan külli miqdarda narkotik vasitəni könüllü surətdə polis əməkdaşlarına təqdim edib.

Ekspertizaya təqdim olunan həmin narkotikanın ümumi çəkisinin 10 kiloqramdan artıq marixuana olması barədə rəy verilib.

Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər.

Faktla əlaqədar Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq-əməliyyat tədbirləri aparılır.

***30 dekabr 2017-ci il.***

*******

Yeni ilin ilk günlərində paytaxtın müxtəlif məkanlarında bomba qoyulması barədə DİN-in "102" Xidmətinə və ərazi polis orqanına iki məlumat daxil olmuşdur. Həmin günlərdə gücləndirilmiş iş rejimində xidmət aparan daxili işlər orqanları əməkdaşlarının peşəkarlıqla həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində biləərəkdən yalan məlumatlar verən şəxslər "isti izlər"lə müəyyən edilərək məsuliyyətə cəlb olunmuşlar.

Belə ki, yanvarın 2-də saat 21.40 radələrində naməlum şəxs Səbail rayonu ərazisindəki mehmanxanalardan birinə bomba qoyulması barədə məlumat vermişdir.

Digər hüquq-mühafizə orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, lakin məlumat təsdiqini tapmamışdır.

Bakı Şəhər Baş Polis İdarəsi və Səbail Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə bomba qoyulması barədə yalan məlumat verməkdə şübhəli bilinən Bakı şəhər sakini 24 yaşlı Elmar Qasımov müəyyən edilərək saxlanılımışdır.

Yanvarın 3-də isə saat 16.28-də DİN-in «102» Xidmətinə zəng edən naməlum şəxs paytaxtın Nizami rayonu ərazisində yerləşən anbarda bomba olması barədə xəbər vermişdir.

Dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılmış, anbara baxış keçirilmiş, bu dəfə də məlumatın yalan olduğu məlum olmuşdur.

Görülmüş tədbirlərlə yalan xəbərin 61 yaşlı Bakı şəhər sakini Həsən İsmayılov tərəfindən verildiyi dəqiqləşdirilmişdir. H.İsmayılov Əlahiddə Çevik Polis Alayının əməkdaşları tərəfindən saxlanılmışdır.

Hər iki fakt üzrə Cinayət Məcəlləsinin 216-cı maddəsi (Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə) ilə cinayət işləri başlanılmış, məhkəmələr tərəfindən saxlanılan şəxslər barəsində həbs qətimkan tədbiri seçilmişdir. Hazırda cinayət işləri üzrə istintaq və əməliyyat tədbirləri davam etdirilir.

Vətəndaşların nəzərinə çatdırırıq ki, insanlar arasında təşvişə və ajiotaja səbəb olan belə əməllər cinayət məsuliyyəti yaradır və hüquq-mühafizə orqanlarına biləərəkdən yalan məlumatlar verən şəxslər barəsində bundan sonra da qanunvericilikdə nəzərdə tutulmuş qaydada ən ciddi tədbirlər görüləcəkdir.

***5 yanvar 2018-ci il.***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2018/2019-cu tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbulunu elan edir

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2018-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2018-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyənlər müsabiqəyə buraxılmırlar.

***Sənədlərin qəbulu 2018-ci il yanvar ayının 10-dan fevral ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək.*** Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-97-76.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda, daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə, qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

***Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.***

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 13 sentyabr 2018-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır. Təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

## 2018/2019-cu tədris ili üçün DİN-in Polis Akademiyasına qiyabi təhsil üzrə dinləyicilərin qəbulu elanı

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrində 1 ildən az olmayaraq, nümunəvi xidmət edən, ilkin hazırlıq kursu keçmiş, şəxsi, mənəvi və fiziki keyfiyyətlərinə görə fərqlənən tam orta və ya ali təhsilli polis əməkdaşları yanvar - mart aylarında xidmət etdiyi orqana müraciət etməklə iştirak edə bilərlər.

Nəzərə alinmalıdır ki, daxili işlər orqanlarında müddətli müqavilə əsasında xidmət keçən əməkdaşların Akademiyada təhsillə bağlı müraciətlərinə müstəsna hallarda, müqavilə müddətinin uzadılması imkanları, eləcə də xidmətdə fərqlənmələri, yüksək nəticələr əldə etmələri nəzərə alınaraq, məsələyə nazirliyin Baş Kadrlar İdarəsi ilə razılaşdırıldıqdan sonra baxılır. Digər əməkdaşların müraciətlərinə isə heç bir məhdudiyyət qoyulmadan baxılıb, tədris işləri dərhal və son olaraq may ayının 10-dək DİN-in Baş Kadrlar İdarəsinə göndəriləcək.

Cari ilin ikinci rübündə nəzərdə tutulmuş DİN-in seçmə komissiyasından müvəffəqiyyətlə keçdikdən sonra sıravi və kiçik rəis heyətindən olan tam orta təhsilli əməkdaşlar III ixtisas qrupu üzrə nəzərdə tutulmuş fənlər üzrə imtahan verirlər. Ali təhsilli sıravi və rəis heyətindən olan əməkdaşlar isə müsahibədə iştirak edirlər.

**Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının (012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin (012) 590-98-16, 18-16 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**









***Onlar hər zaman səfərbərdirlər. Bayrağımızı ucaltmaq, ölkəmizin idman şərəfinin qorunması naminə parlaq qələbələr qazanmaq əzmindədirlər. Nə çətin sınaqlar, nə də gərgin yarışlar onları yorub, usandırmır. Gərgin işləyib, əzmlə çalışırlar, asudə vaxtlarını təlim-məşqlərinə həsr edir, ustalıqlarını, hazırlıqlarını daim artırırlar. Zəhmətləri də hədər getmir.***

***Cinayətkarlıqla mübarizədə fədakarlıq göstərən, asayişi, sabitliyi qorumaq üçün gecəli-gündüzlü sayıq xidmət aparan, yeri gələndə silahlı şəxsləri tərksilah edən, yanğının, odun-alovun içindən insanları xilas edən təmsilçilərimiz bizə idman zəfərləri də bəxş edirlər.***

# İDMANIMIZIN BAYRAQDARLARI

Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. İdman ulduzları təmsilçilərimizi ən güclü rəqibləri bilirlər. Ölkəmizin dünyanın ən möhtəşəm idman yarışlarına ev sahibliyi etməsi adi hal alıb. Heç şübhəsiz ki, ötən ilin ən böyük idman hadisəsi IV İslam Həmrəyliyi Oyunları oldu. Müsəlman dünyasının 54 ölkəsindən 3 mindən çox idmançının gərgin mübarizə apardığı yarışda atletlərimiz doğma divarlar arasında növbəti zəfərə imza atdılar. 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla, 162 medal qazanan Azərbaycan IV İslamiadanı rekord göstərici ilə birinci pillədə başa vurdu. ***DİN İdman Cəmiyyətini təmsil edən idmançılarımız və yetirmələr bu yarışda 9 qızıl, 3 gümüş və 1 bürünc medal qazanmaqla ölkəmizin qələbəsinə öz töhfələrini verdilər.*** Digər dünya və qitə çempionatlarında, beynəlxalq yarışlarda da təmsilçilərimiz respublikamızı layiqincə təmsil ediblər.

Möhtərəm dövlət başçımızın ilin idman yekunlarına həsr olunmuş tədbirlərdə idman qələbələrinin qazanılmasında əməyi olan idmançılar, məşqçilər və mütəxəssislər ilə görüşü son illərin ən gözəl ənənələrindəndir. Hər dəfə belə görüşlərdə idmançılarımızın, o cümlədən daxili işlər orqanlarının yetirmələrinin əməyi yüksək qiymətləndirilir.

Dekabrın 18-də dövlət başçımızın iştirakı ilə keçirilən 2017-ci ilin idman yekunlarına həsr olunmuş tədbir sevincimizə sevinc, fərəhimizə fərəh qatdı. Təltif olunanlar arasında daxili işlər orqanlarının idmançı əməkdaşları, DİN İdman Cəmiyyətinin təmsilçilərini görmək qürurverici idi.

Möhtərəm Prezidentimizin ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə **Olimpiya, dünya və Avropa çempionu, DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftahətdinovaya** "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adını, döş nişanı və vəsiqəsini təqdim etməsi bütün idmansevərlərin ürəyincə oldu.

**İdman cəmiyyətinin əməkdaşı, əməkdar məşqçi Rəsul Məmmədovun** uzun illər ərzində çəkdiyi zəhməti, yorulmaz məşqçilik fəaliyyəti Milli Olimpiya Komitəsinin "Fəxri fərman"ı ilə təltif olunmaqla öz layiqli qiymətini alıb. Onun yetirmələri dəfələrlə mötəbər yarışlarda ölkəmizi yüksək səviyyədə təmsil edib, əlbəyaxa döyüşün cui-citsu növündə nailiyyətlər qazanıblar.

Həmin tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmanın inkişafında və əldə etdiyi yüksək nailiyyətlərə görə bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderini təqdim etməsi onlara göstərilən ali diqqət və qayğının növbəti əyani təzahürü oldu. **DİN-in Baş Cinayət Axtarışı İdarəsinin əməkdaşı, polis baş leytenantı Elçin Bədəlovun** böyük idmanda uğurları hələ orta məktəbdə başlayıb. Polis Akademiyasında təhsil aldığı zaman, 2014-cü ildə Braziliyada keçirilən karatenin full-kontakt növündən dünya çempionu olub, Latviyada Avropa çempionu adını alıb. Sonradan ikinci dəfə dünya çempionatının qızıl medalına sahib olub. Təmsilçimiz həm də dəfələrlə respublika çempionu, beynəlxalq turnirlərin qalibi olub.

**Bakı Şəhər BPİ DYPİ-nin polis nəfəri Nicat Əliyev** və İdman Cəmiyyətinin məşqçisi Emil Qurbanov universal döyüş üzrə qatıldıqları mötəbər yarışlarda ölkəmizi dəfələrlə layiqincə təmsil ediblər.

İdmançılarımız üçün daha bir əlamətdar yarış dekabrın 25-də Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında keçirilib. 2017-ci ilin idman yekunlarına həsr olunmuş həmin mərasimdə ilin yekunlarına əsasən, bir sıra nominasiyalar üzrə ən yaxşı idmançıların adlarının açıqlandığı siyahıda **DİN Daxili Qoşunlarının İdman komandasının əməkdaşı, baş leytenant Ruslan Lunyov da var. İlin ən yaxşı idman təşkilatları sırasında isə DİN İdman Cəmiyyəti yer alıb.**

2017-ci ildə daxili işlər orqanlarında xidmət edən 150-yə yaxın əməkdaş tərəfindən ölkə və beynəlxalq miqyaslı yarışlarda qazanılan 43 medaldan 32-si ölkənin milli komandalarının tərkibində beynəlxalq arenalarda, Avropa və Dünya çempionatlarında əldə olunub. Ümumiyyətlə, **ötən il ərzində DİN İdman Cəmiyyətinin təmsilçiləri tərəfindən ölkə və beynəlxalq miqyaslı yarışlarda 231 medal qazanılıb. Onların 73-ü qızıl, 65-i gümüş, 93-ü bürüncdür. 64 medal yeniyetmələrin, 47 medal gənclərin, 120 medal isə böyüklərin payına düşüb. Medallardan 96-sı beynəlxalq miqyaslı, 135-i isə respublika birincilik və çempionatlarında qazanılıb.**

Şübhə yoxdur ki, idman ölkəmizdə gələcəkdə daha da inkişaf edəcək və idmançılarımız Azərbaycana yeni-yeni uğurlar qazandıracaqlar. Çünki möhtərəm dövlət başçımızın bədən tərbiyəsi və idmanın inkişafı sahəsində gördüyü genişmiqyaslı tədbirlər Azərbaycanı dünyaya idman ənənələri olan ölkə kimi də tanıtdırıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi uğurlarımızı, DİN-in bu sahədə də verdiyi töhfələri artırmaqdadır.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# MARAQ DÜNYASI



Hollandiyada "FITWORLD" idman salonunun sahibi olan Patrick de Man müştərilərinə alternativ xidmət təqdim etməyə qərar verib.

Bir müştərisinin məsləhəti ilə belə bir fikrə gəldiyini bildirən De Man deyib ki, velosipedə minənlərə birdəfəlik istifadə edilən «Selen» veriləcək. Maşınları da günün sonunda təmizlənəcək.

*****

ABŞ-da bir qadın soyuducunun qapısını açıb və həyatının şokunu yaşayıb. Ərinin iki gün əvvəl ovlayaraq soyuducuya qoyduğu ördəyi qarşısında canlı görən qadının bagırtısına qızı gəlib. Ördəyi ən yaxın baytara aparan ana və qızı heyvanın canını qurtarmağa nail olublar.



*****

İngiltərəli fermer inəklərinin ətinin daha da ləzzətli olması üçün onlara hər gün pivə içirir. Darren Pluess adlı bu şəxs, üstəlik, ətin daha da yumşaq olması üçün heyvanlarını masaj da elətdirir.

*****

Floridada kişi adam öldürtmək üçün kiralıq qatil tutubmuş. Talehin cilvəsinə baxın ki, tutduğu kiralıq qatil öldürtmək istədiyi adamın oğlu imiş.

*****

Hong-Kongda yatdığı çarpayıdan aşağı sürüşən şəxs açıq pəncərədən düşərək 11 mərtəbədən yerə çırpılıb.



O, binanın 2-ci qatındakı kondinsionerin üzərinə düşüncə, ölümdən dönüb.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# QALİBLƏRİN SIRASINDA

**Ölkəmizdə idmana və idmançılara göstərilən diqqət və qayğının, yaradılan şəraitin nəticəsidir ki, bu gün təmsilçilərimiz az qala bütün yarışlarda favorit hesab olunurlar. Paytaxtımızda və bölgələrdə mötəbər beynəlxalq yarışların keçirilməsi isə artıq adi hal alıb və bu da idmançılarımızın təcrübəsinin artmasına birbaşa təsir edir.**




Zəngin ənənələri olan Azərbaycan güləş məktəbi də öz yüksəliş dövrünü yaşayır. Pəhləvanlarımızın qatıldıqları bütün miqyaslı yarışlarda mükafata layiq görülürlər.

Dekabrın 16-dan 18-dək Bakı İdman Sarayında keçirilən ölkə çempionatında 10 çəki dərəcəsində mübarizə aparan 212 idmançı yüksək fiziki hazırlıq və texniki bacarıq nümayiş etdirib.

Respublikamızın bütün bölgələrində fəaliyyət göstərən idman klub və cəmiyyətlərinin komandaları ilə bir arada DİN İdman Cəmiyyətinin yetirmələri də güclərini sınayıblar. İdman təlimi şöbəsinin əməkdaşı, polis polkovnik-leytenantı İlham Mustafayevin hazırladığı Sahib Əliyev (65 kiloqram) və Elçin Məmmədov (86 kiloqram) fəxri kürsünün üçüncü pilləsində qərarlaşıblar. Şöbə rəisi, polis polkovnik-leytenantı İlyas Siracovun yetirməsi olan Cavid Sadıxov isə çəkisi 92 kiloqramadək olan idmançılar arasında çempionatın bürünc medalını qazanıb.

*X.Məmmədova,*
*polis leytenantı*

# ELAN
## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**
1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# BƏLA BƏLA GƏTİRƏR ÖZÜYLƏ...

**Yurdumuzun əziz bayramı-Novruza hazırlıq işləri, demək olar ki, hələ lap ilk çərşəmbədən başlanır. Hər ailədə, hər evdə təmizlik işləri görülür, bayram şirniyatları bişirilir, qohum-qardaş bir-birinə qonaq gedir, şadyanalıq edirlər.**

Sabirabad rayonunun Kovlar kənd sakini Xanbala Cəfərov da elə bu istəklə öz ailəsini başına yığıb qudasıgilə qonaq getmişdi. O qədər deyib-güldülər, yeyib-içdilər ki, gecənin nə vaxt yarı olduğunu



hiss etmədilər. Nəhayət, sağollaşıb evlərinə döndülər. Xanbala kişi bərk yorulduğundan evə çatan kimi çarpayıya uzanıb yatdı.

Neçədə yatırlarsa-yatsınlar, adətləri üzrə, tezdən oyanmışdılar. Axşamki məclisin təsirindən Xanbalanın başı möhkəm ağrıyırdı. Evin xanımı ona bir fincan çay süzdü. Bir azdan səhər yeməyi də hazır olacaqdı. Xanbala sanki bunu gözləyirdi, tez yerindən durub mətbəxdəki dolabdan yarımçıq araq şüşəsini götürüb masanın üstünə qoydu. Bir qədəh süzüb içmək istəyirdi ki, həyat yoldaşı deyinməyə başladı:

*-Yenə tezdən o zəhəri içirsən?*

*-Sən kimi çox istəyirsən, onun canı, mənimlə işin olmasın, başım partlayır.*

*-Axşam az içəydin, elə bil ömründə araq-zad görməmisən.*

*-Ay qız, ağzını yum!*

*-Pul istəyəndə, deyirsən yoxdu, amma içkiyə, siqaretə tapırsan. Bəs, mənim dişlərimi nə vaxt düzəltdirəcəksən?*

*-Sən heç narahat olma, məhsulu yığıb satan kimi, həll edərik.*

*-Bu sözləri çox eşitmişəm, daha dözə bilmirəm:* deyən qadın hönkurtüylə ağlamağa başladı.

Bu Xanbalanı daha da hövsələdən çıxardı. Qəzəblə yerindən qalxıb onun boğazından yapışdı. Qadın nə qədər çabalasa da ərinin dəmir kimi möhkəm əllərindən qurtula bilmədi. Xanbala isə onu quş kimi qaldırıb bir az aralıda qoyulmuş sobanın yanına tulladı. Qadın elə düşdüyü yerdə də qaldı. Bir neçə dəqiqə arvadının hərəkətsiz qaldığını görüb ona yaxınlaşdı:

*-Şahnisə, Şahnisə...*

Qadından səs çıxmadı. Nəbzini yoxlayanda iş-işdən keçdiyini anladı. Sakitcə cəsədi qaldırıb yatağına uzatdı. Heç nə olmamış kimi üstünü də yorğanla örtüb işə yollandı.

Evin gəlini qaynanasının yuxudan oyanmadığını görub yataq otağına keçib hövsələsiz:

*-Ay ana, sən ki, bu vaxtacan yatmazdın axı,*-dedi...

Ötən ilin mart ayinda baş vermiş bu ailə faciəsinin istintaqı xeyli uzandı. Cinayətin üstünün açılmaması, "zərərçəkmiş" Xanbalanın da hər dəfə polisə müxtəlif cür ifadə verməsi müəyyən sualları açıq qoyurdu.

Sabirabad Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Namiq Camalovun rəhbərliyi ilə keçirilən əməliyyat müşavirəsində məsələnin ciddiliyi şəxsi heyətin diqqətinə bir daha çatdırıldı və cinayət işinin materiallarının yenidən öyrənilməsi tapşırıldı.

Hal şahidləri polisə dəvət olunaraq ifadələri yenidən alındı. Ev sahibi X. Cəfərovun söylədikləri yenə də əvvəlkilərlə ziddiyyət təşkil edirdi. O, yenə də qarışıq ifadələrlə polisi çaşdırıb məsuliyyətdən yaxa qurtarmaq istəsə də, bu dəfə alınmadı. Nəhayət ki, təkzibolunmaz faktlar, məntiqli suallar, ətraflı araşdırmalar qarşısında həyat yoldaşını necə qətlə yetirməsini polisə anlatdı.

Yeri gəlmişkən, Sabirabad RPŞ-nin şəxsi heyəti ötən il ərzində cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunmasında müəyyən müsbət nəticələr əldə etmişdir. RPŞ-nin əməliyyat üzrə rəis müavini, polis polkovnik-leytenantı Bəymənməd Bayramovun dediyinə görə baş vermiş cinayətlərin açılması 95,5 faiz təşkil etmişdir. Axtarışda olanların tutulması 83,3 faizi, ağır və xüsusilə ağır cinayət törətdiklərinə görə axtarılanların isə 66,7 faizi tutularaq istintaq orqanlarına təhvil verilmişdir. İtkin düşənlərdən 11-i tapılmışdır. Mülkiyyət əleyhinə törədilmiş cinayətlərin açılması 86,9 faiz olmuşdur. Narkotik vasitələrin qanunsuz dövriyyəsiylə əlaqədar 46 fakt aşkarlanmışdır ki, onlardan da 21-i saxlama, 12-si satış, 13-ü əkinlə bağlıdır. Qanunsuz dövriyyədən 15 kiloqramdan çox müxtəlif növ narkotik vasitə çıxarılmışdır. Qəsdən adam-öldürmə, sağlamlığa ağır zərər vurma, sağlamlığa yüngül zərər vurma, şəxsiyyət əleyhinə, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, mənimsəmə, israfetmə, avtonəqliyyatın qaçırılması kimi cinayətlərin açılması yüz faiz təmin olunmuşdur.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*




"PKK terror təşkilatı narkotik satışından ildə 1.5 milyard dollar qazanır". Bu sözləri Türkiyənin daxili işlər naziri Süleyman Soylu deyib. Əvvəlki ilə nisbətən ötən il Əfqanıstanda narkotik istehsalının 85-90 faiz artdığını bildirən nazir Türkiyənin buna qarşı mücadilə apardığını qeyd edib.

*****

***2017-ci ildə Birləşmiş Ştatlarda 128 polis əməkdaşı xidməti vəzifəsini icra edən zaman həyatını itirib. Bu barədə ABŞ-ın Hüquq-Mühafizə Orqanları Əməkdaşlarının Milli Memorial Fondu məlumat verib.***

***Fondun bəyanatında bildirilir ki, 8 polis əməkdaşı pusquya düşüb, 44 nəfər odlu silah yarasından, eləcə də ailə münaqişələrinin nizamlanması üzrə çağırışlar zamanı ölüb, 47 polis yol qəzasına düşüb.***

***Əvvəlki il bu göstərici 143 nəfər təşkil edib. Onlardan 66 nəfəri cinayətkarlar tərəfindən öldürülüb.***

***Bununla belə, 2017-ci ildə qanun keşikçiləri tərəfindən 970, 2016-cı ildə isə 963 nəfər öldürülüb.***

*****

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda yol qəzası törətməkdə ittiham olunan şəxs edam edilib.

Sərxoş vəziyyətdə qəza törədən Məhəmməd əl-Kəhtani altı nəfərin ölümünə səbəb olub. Belə ki, onun yüksək sürətlə idarə etdiyi avtomobil digər maşına çırpılıb. Həmin vaxt ikinci avtomobildə bir ailənin yeddi üzvü olub ki, onlardan 6-sı hadisə nəticəsində həlak olub.

*****

***Meksikada son 20 il ərzində törədilən qətllərin sayı ən yüksək səviyyəyə çatıb. Bu rəqəm noyabr ayının sonunadək 23,1 min nəfər olub. Daxili İşlər Nazirliyinin məlumatında bildirilir ki, ötən ilin 10 ayı ərzində isə təqribən 21 min qətl hadisəsi törədilib.***

*****

Çinin Quancjou şəhərində «WeChat» messencerinin virtual şəxsiyyət vəsiqəsi kimi tətbiqi üzrə pilot layihə istifadəyə verilib. Layihə 2018-ci ilin yanvarından ölkə ərazisində qüvvədədir. Messencer vətəndaşların ənənəvi şəxsiyyət vəsiqələrini əvəz edir və onlara dövlət xidmətləri, çatdırılma xidmətləri, mehmanxanalarda qeydiyyatdan keçməyə, alış-veriş etməyə imkan verir.

«WeChat» mətn və səsli mesajların ötürülməsi üçün mobil rabitə sistemidir.

*****

***Rusiyada "Yol Hərəkəti Haqqında Qaydalar"a yeni maddə əlavə edilib. Əlavəyə görə, bundan sonra sürücülər avtomobillərini yaşayış məntəqələrindən kənarda saxlayıb tərk etdikləri zaman məcburi qaydada işığı əks etdirən gödəkcə və ya jilet geyinməlidirlər yenilik martın 17-dən etibarən qüvvəyə minəcək.***

***2017-ci ilin son 6 aylıq statistikasına görə, günün qaranlıq saatlarında 7,5 min piyada vurulması qeydə alınıb. Bu rəqəm 2016-cı ilin analoji dövrü ilə müqayisədə 10,2 faiz az olsa da, hadisələr zamanı 1321 nəfər həlak olub və 6537 nəfər zərər çəkib.***

***Bununla yanaşı, nəqliyyat vasitələri sürücülərinin vurulması halları artıb. Belə ki, qeyd edilən dövr ərzində 66 belə hadisə baş verib. Bu isə 2016-cı illə müqayisədə 4,8 faiz çoxdur.***

*****

Hindistanın «H-Bots Robotics» şirkəti dünyanın ilk robot polisini təqdim edib. Robot yeriyə, insanları və şübhəli şəxsləri tanıya, partlayıcı maddəni tapa, həmçinin ətrafdakılarla qarşılıqlı ünsiyyətə girə-məlumat qəbul edə və sualları cavablandıra bilir.

İstehsalçı şirkət artıq müxtəlif təşkilatlardan 20 sifariş alıb.

Hindistan «robokop»larının istehsalına 2018-ci ilin iyulundan başlanacaq.

*C.Natiq*

# XİDMƏTDƏ DƏ, İDMANDA DA

**Qusar Rayon Polis Şöbəsinin əməkdaşları komanda oyunlarında, idmanın ayrı-ayrı növlərində uğurlarını artırmağa da vaxt tapırlar.** Bu yaxınlarda onların Qusar Rayon Olimpiya İdman Kompleksində mini-futbol üzrə açıq rayon birinciliyində iştirakları buna bariz nümunədir.

Bir ay davam edən turnirdə iştirak edən RPŞ-nin idmançı əməkdaşlarından ibarət komanda ilk oyunlardan öz fəallığı ilə seçiliblər.

Keçirilən bütün qarşılaşmalarda inamlı qələbə qazanılıb.

Həlledici final görüşünün əvvəlində təmsilçilərimiz hesabda üstünlük qazansalar da, sonradan hesab bərabərləşib. Yekunda Qusar RPŞ-nin komandası turniri ikinci pillədə başa vurub.

*N.Aytən,*
*N. Həmidov*

## Yanvarın 1-dən 9-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 888 cinayət qeydə alınmış, onların 139-u «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 79 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 35 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 17 nəfər ölmüş, 55 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 64 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 200 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Bərdə RPŞ-nin rəisi İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti rəis müavini Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti iş yoldaşları Rasim Heydərova atası
**ABDULLA kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Abdul Zərgərli və şəxsi heyəti iş yoldaşları Ruslan Babayevə əzizi
**TAHİRƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Bərdə RPŞ-nin rəisi İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov BƏSİİ-nin şöbə rəisi Əli Fəhradova anası
**ŞUŞA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Şəmşir Kazımov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Adil Həsənov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSKƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zəngilan RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Şahin Məmmədova atası
**İSGƏNDƏR MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.113
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00